Türkiyənin "2024-2028-ci illər üzrə Ali Təhsildə Beynəlmiləlləşmə Strategiya Sənədi" açıqlanıb. Sənədi strateji hədəf kimi qiymətləndirən Ali Təhsil Şurasının sədri Erol Özvar bununla türk ali təhsilinin regional və qlobal səviyyədə akademik, tələbə və idarəetmə sahəsində mobillik və qarşılıqlı əlaqə mərkəzi olmasına çalışdıqlarını açıqlayıb. Sənədin əsas məqamlarına diqqət çəkən E.Özvar qeyd edib ki, dünyanın bütün bölgələrində olan türk alimlərinin reyestri yaradılacaq. Bu reyestrlə "Elmi Vətən" yaradılacaq. Elm bütün dünyada türk alimlərinin elmi-tədqiqatları ilə vətənin sərhədlərini müəyyən edəcək. Türk alimləri arasında əlaqələri gücləndirməklə böyük güc formalaşacaq. E.Özvar aşağıdakı məqamları diqqətə çatdırıb:

*Erol Özvar:*

# "Türk dövlətlərinin Ali Təhsil Fondu yaradılacaq"




Türkiyənin "2024-2028-ci illər üzrə Ali Təhsildə Beynəlmiləlləşmə Strategiya Sənədi" açıqlanıb

* Universitetlərimizin xaricdə kampuslar, fakültələr və proqramlar kimi akademik bölmələr açmaları təşviq olunacaq. Bu məqsədlə Azərbaycan və Özbəkistandan sonra Türkiyə universitetlərinin Balkanlarda, Yaxın Şərqdə, Mərkəzi Asiyada və Afrikada kampusları açılacaq.
* Yüksək texnologiya, mühəndislik, tibb və təbiət elmləri kimi strateji sahələrdə ixtisaslaşmış beynəlxalq məzunlar Türkiyə universitetlərinə və sənaye sahələrinə cəlb olunacaq.
* Beynəlxalq miqyasda nüfuzlu alimlərin qısa və uzun müddət Türkiyə universitetlərində çalışması üçün lazımi qaydalar və təşviqlər genişləndiriləcək.
* Türk dünyasının ali təhsil sahəsi möhkəmləndiriləcək.

**Türk Dünyası Ali Təhsil Sahəsi gücləndiriləcək**

Ali Təhsil Şurasının sədri əlavə edib ki, "Türkiyədə əcnəbi tələbələrin sayı 500 mini keçəcək, ölkəmizdə beynəlxalq tələbələrin qlobal payı 6,25%-ə çatdırılacaq. Akademiklər xaricdəki tədqiqat təqaüd proqramları vasitəsilə doktorantura və postdoktorantura dərəcələri üçün xaricdəki seçilmiş universitetlərdə və tədqiqat mərkəzlərində işləməyə təşviq ediləcəklər. Beynəlxalq tələbələrin ölkəmizə gəlməsində rol oynayan təhsil və konsaltinq şirkətləri üçün hüquqi, inzibati və akkreditasiya tənzimləmələri aparılacaq.

**Türkiyə dünyada ən çox beynəlxalq tələbə qəbul edən 8-ci ölkədir**

Avropa Ali Təhsil Bölgəsində ən çox tələbəyə malik ölkə olan Türkiyə, eyni zamanda 350 min beynəlxalq tələbə ilə dünyanın ən çox beynəlxalq tələbəsi olan 8-ci ölkəsidir. Türkiyədəki beynəlxalq tələbələrin ümumi tələbə sayındakı payı 7,49% təşkil edir ki, bu da OECD orta göstəricisi olan 6,62 faizdən çoxdur. İxtisaslı beynəlxalq tələbələri ali təhsil sisteminə cəlb etmək üçün beynəlxalq tələbələrin universitetlərə qəbulunda "YÖS"ün beynəlxalq səviyyədə tanınan bir imtahan olması hədəflənir.

Strategiya sənədində beynəlxalq məzunların Türkiyənin Ar-Ge (inkişaf və tədqiqatlar) ekosisteminə verdiyi töhfənin Türkiyənin beynəlxalq nüfuzunu və qlobal əmək bazarında rəqabət qabiliyyətini artıracağı vurğulanır.

**Beynəlxalq professor-müəllim nisbəti 5 faizə qaldırılacaq**

Ümumi professor-müəllim heyətinin 1,57 faizini təşkil edən beynəlxalq professor-müəllim heyətinin nisbətinin 5 faizə çatdırılması nəzərdə tutulur. Sənəddəki məqsədlərə uyğun olaraq, ali təhsil müəssisələri arasında tələbə və professor-müəllim heyəti mübadiləsi təşviq ediləcək, bütün dünyada mobilliyin müxtəlifliyini, sayını və keyfiyyətini artırmaq üçün siyasətlər hazırlanacaq.

Beynəlxalq əməkdaşlıq müqavilələri, birgə təhsil-tədris proqramları, birgə həyata keçirilən layihələr və elmi fəaliyyətlərlə bağlı siyasətlər müəyyən edilərək universitetlər bu sahələrdə təşviq olunacaq.

**Tədqiqat universitetlərinin dünya reytinqlərində yüksəlməsinə dəstək davam edəcək**

Türkiyə ali təhsil müəssisələrinin dünya reytinqlərində yüksəlməsini təmin etmək üçün tədqiqat sahəsində ən çox potensiala malik tədqiqat universitetlərinə xüsusi proqram çərçivəsində dəstək davam etdiriləcək.

**Türk Universitetlər Birliyi akademik dünyada brendə çevriləcək**

Bu çərçivədə türk dünyasında ali təhsil sahəsində birgə layihələrin həyata keçirilməsinə dəstək veriləcək. Türk Dünyası Ali Təhsil Məlumat Bazası, Türk Dünyası Ali Təhsildə Keyfiyyət Təminatı və Akkreditasiyası Agentliyi, Türk Dövlətləri Təşkilatının Ali Təhsil Fondu yaradılacaq. Türk Universitetlər Birliyinin akademik dünyada brend olması üçün bu birliyə daxil olan universitetlərə dəstək veriləcək.

Xüsusilə digər ölkələrin müəllimlərinin tələbatını ödəmək üçün magistratura və doktorantura səviyyələrində xarici dildə təhsil proqramlarının sayı və keyfiyyəti artırılacaq.

E.Özvar bildirib ki, sənəd Türkiyəni ali təhsildə beynəlxalq cazibə mərkəzinə çevirmək vizyonuna uyğun olaraq hazırlanıb.

**Oruc MUSTAFAYEV**